# Nobelçi azərbaycanlı – Bəxtiyar Siracov



**Norveç Sülh Komitəsinin qərarı ilə 2005-ci ildə Nobel Mükafatına layiq görülən Atom Enerjisi üzrə Beynəlxalq Agentliyinin (AEBA) əməkdaşları sırasında soydaşımız Bəxtiyar Siracov da var. O, bu mükafatı alan Azərbaycan əsilli ilk alimdir.**

Bəxtiyar Siracovu xatırlamağımıza onun dostu – Gürcüstanda yaşayan **tədqiqatçı alim Mahmud Kamaloğlu** səbəb oldu. Uzun illərdən bəri Nobel mükafatçısı ilə dostluq edən professor Mahmud Kamaloğlunun söylədikləri məşhur həmyerlimizi daha yaxından tanımağa imkan verdi.

Bəxtiyar Tahir oğlu Siracov 1957-ci il ildə Bakıda ziyalıailəsində doğulub. Bakıdakı 82 saylı orta məktəbdə oxuyub, sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) "Tətbiqi riyaziyyat" fakültəsini bitirib. Əmək bioqrafiyasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Kibernetika İnstitutunun (indiki İdarəetmə Sistemləri İnstitutu), Rusiya Elmlər Akademiyasının, Slovakiyanın paytaxtı Bratislava şəhərindəki Slovakiya Elmlər Akademiyasının adları keçir. 1995-ci ildə Avstryada Vyana Beynəlxalq Mərkəzinin nəzdində yerləşən AEBA-da işə qəbul olunur. Bəxtiyar Siracov keçən əsrin 80-ci illərində SSRİ-də fərdi kompüterlər üçün proqram texnologiyaları sahəsində öndə dayanan tədqiqatçılardan olub, bu gün də AEBA-da çalışır və informasiya sistemlərinin proqram təminatı şöbəsinə rəhbərlik edir.

2005-ci ildə Norveç Sülh Komitəsinin qərarı ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və onun baş direktoru Məhəmməd əl-Baradei nüvə enerjisinin hərbi məqsədlər üçün istifadəsinin qarşısının alınmasında və nüvə enerjisindən dinc məqsədlər üçün təhlükəsiz şəkildə istifadə edilməsinin təmin olunmasında göstərdikləri xidmətlərə görə Ali Sülh mükafatına layiq görülüblər. Agentliyin binasının girişində asılmış lövhədə bu mükafata layiq görülmüş heyətin tərkibində Bəxtiyar Siracovun da adı görünməkdədir. Beləliklə o, Bakıda dünyaya gəlmiş, XX yüzilliyin əfsanəvi fiziki Lev Landaudan sonra Nobel mükafatına layiq görülən 2-ci azərbaycanlı kimi tarixə düşüb.

Bəxtiyar Siracov elmi fəaliyyəti ilə yanaşı, mədəni-ictimai fəaliyyətlə də məşğuldur. O, Vyana Beynəlxalq Mərkəzinin nəzdində yaradılmış incəsənət klubunun üzvüdür, Avstraliya paytaxtında azərbaycanlı rəssamların sərgilərini təşkil edib.

Beynəlxalq Nobel Sülh mükafatçısı olan həmyerlimizin Eldar və Elşən adlı iki oğlu var. Eldar Vyana Texnologiya Universitetinin məzunudur, şəxsi kompüter şirkəti var və kompüter qrafikası ilə məşğuldur. Kiçik oğlu Elşən İngiltərənin Royal Holluey Universitetində və ABŞ-da ali təhsil alıb. Hazırda Vyanada yaşayır və işləyir.

**_N.QƏDİMOĞLU_**

Xalq qəzeti.-2023.- 30 dekabr, (№ 287).- S.14. **XQ**